*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 167-175* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.167*

# Anatol Fransın "Tais" romanı: kod, kontekst və funksiya

**Şəbnəm Abbasova**
Bakı Avrasiya Universiteti, magistr
E-mail: ab.shebnem@gmail.com
Orcid id:0009-0000-0603-3741

**Annotasiya.** Məqalənin tədqiqat mövzusunu təşkil edən "Tais" romanı tarixi, ədəbi, ədəbi tənqidi, fəlsəfi və psixoloji istiqamətlərdən araşdırılmışdır. İlk olaraq əsərin məzmunu əsasında lakonik təhlil verilmişdir. Əsərdə keçən hadisələr antik dövr ilə modern dünya arasında keçən zaman dilimlərində baş verir. Rus tədqiqatçıları O.F.Şileviç və E.A.Aqapitova tədqiqatlarında personajın bədii layını analiz edərkən, S.A.Nefedov "Dünyanın qədim tarixi" əsərində Fars-Yunan müharibələri nəticəsində baş verən yanğının detallarını elmi faktlar əsasında təqdim edir. Türk tədqiqatçı Şefik Can "Klassik Yunan mifologiyası" kitabında Erosun oxu ilə yaranan sevgi hekayələrini qeyd edərkən, əsərin bədii süjetində Eros heykəli tonqala atılır.
Taisin ədəbi ekskursiyası – Taisdən öncə Tais, Anatol Fransın təqdimatında Tais və Anatol Fransdan sonra Tais olaraq – 3 mərhələdə araşdırılır. Tədqiqatçı Sidney Duqlas Enqle, Sitka Sandro və Alman Konrad Setles tərəfindən tədqiq edilən "Tais" personajı ilə bağlı yaranan əfsanə ilk dəfə latın dilində qələmə alınmışdır. Taisin cəmiyyətdə daşıdığı sosial status, hetera və geyşa adları ilə ümumiləşdirilmişdir. Gözəllik-əxlaq qarşıdurmasında Lotus çiçəyinin bütün xüsusiyyətləri Taisin fiziki quruluşu ilə vəhdət halında analiz edilmiş, ölümcül huma xəstəliyi huma bitkisi və Türk mifologiyasında Humay adı ilə tanınan quş üzərində dayanılmışdır. A.Fransın "Tais" romanının süjet xəttini italyan yazıçı Danta Aligiyerinin 1308-1321-ci illərdə yazdığı "İlahi Komediya" poeması, İ.Efremovun 1972-ci il tarixli "Afinalı Tais" romanı və Olqa Erlerin 2009-cu il tarixli "Makedoniyalı İskəndər və Tais. Möhtəşəm heteranın sədaqəti" adlı əsərləri üzərində müqayisəli ədəbiyyatşünaslıq müstəvisində tədqiq etdik.
Əsərin son yarımbaşlığında Dekartın "şübhəli bilik" əsasında duran fəlsəfi fikri, "nisbi həqiqət" anlayışı, Epikürün dünyagörüşü ilə yaranan həzz nəzəriyyəsi və dini fanatizm tədqiq edilmişdir.
**Açar sözlər:** Anatol Frans, Tais, Makedoniyalı İskəndər, tarixi roman, hetera, geyşa, simvolizm, keşiş, dini fanatizm, fəlsəfi kontekst

**Məqalə tarixçəsi:** göndərilib – 16.04.2024; qəbul edilib – 30.05.2024

# The novel "Tais" by Anatolle France: code, context and function

**Shabnam Abbasova**
Baku Eurasian University, Master
E-mail: ab.shebnem@gmail.com
Orcid id: 0009-0000-0603-3741

**Abstract.** The novel "Tais", which is the topic of research in the article, was studied from historical-literary, literary-critical, philosophical and psychological directions. First, a brief analysis

of the content of the work was given. The events in the work take place in the time intervals between antiquity and the modern world. While Russian researchers O.F.Shilevich and E.A.Agapitova analyze the artistic layer of the character in their studies, S.A.Nefedov, based on scientific facts, presents in his work “Ancient History of the World.” Turkish researcher Shefik Jan in his book “Classical Greek Mythology” mentions love stories created by the arrow of Eros.
Thais's literary excursion is considered in 3 stages: Thais before Thais, Thais as presented by Anatole France and Thais after Anatole France. The legend of the character “Thais”, which was studied by researchers Sidney Douglas Engle, Sitka Sandro and the German Conrad Settles, was first written in Latin. The social status he carried in society was summed up by the names hetaera and geisha. In the conflict between beauty and morality, all the characteristics of the lotus flower were analyzed in unity with the physical structure of Thais, and the deadly huma disease was based on the huma plant and the bird known in Turkish mythology as Humay. We studied the storyline of A. France's novel “Thais” is based on the poem “The Divine Comedy” written by the Italian writer Danta Alighieri in 1308-1321, the novel “Thais of Athens” by I.Efremov in 1972 and the story “Alexander the Great and Thais. The Loyalty of the Magnificent Hetaira” by Olga Erler in 2009 at the level of comparative literature.
The final subtitle of the work examines Descartes' philosophical thought based on “dubious knowledge”, the concept of “relative truth”, the theory of pleasure created by the worldview of Epicurus, and religious fanaticism.
**Keywords:** Anatole Franz, Thais, Alexander the Great, historical novel, hetaera, geisha, symbolism, priest, religious fanaticism, philosophical context

**Article history:** received – 16.04.2024; accepted − 30.05.2024

## Giriş / *Introduction*

Düşüncə fərdi kainatın materiya vahidlərinin zaman-məkan prizması əsasında dəyərləndirməsindən uzaqlaşdırır. İndividual mahiyyətə sahib olan insan söz vasitəsilə düşüncəni səsli nitqə çevirir. Belə ki, idrak prosesinin fərdi təfəkkür mərhələsi şifahi və yazılı mətnlərin basqın üslubuna ədəbi zərbə endirir. Müəllif şərhi subyektiv iradəyə əsaslanaraq müxtəlif ədəbi prosesləri öz yaradıcılıq kateqoriyasına daxil edir və ona fərqli rəng qatır. Bu baxımdan tədqiqatın ədəbi arenasını təşkil edən Fransız ədəbiyyatı dünya üzrə bir çox yazıçının üslubuna dərindən nüfuz etmişdir. Sürətli ekskursiya nəticəsində Fransız ədəbiyyatının 1600-1700-cü illərdə klassisizm, 1800-cü illərdə romantizm, realizm və simvolizm, 1900-cü illərdən etibarən avanqard cərəyanların (sürrealizm, ekzistensializm) fövqündə yaranan dövri mənzərəsi ilə tanış oluruq. Fransız ədəbiyyatının xarakterik xüsusiyyəti olan rasionallıq məqalənin obyektini təşkil edən Anatol Fransın yaradıcılığında maksimal həddə çatmışdır. Yazıçı, tənqidçi, filosof, tarixçi və publisist kimi fəaliyyət göstərən müəllif “Yokasta” (1879), “Arıq pişik” (1879) povestləri, “Silvestr Bonnarın cinayəti” (1881), “Tais” (1890), “Kraliça Qazayağının aşxanası” (1893), “Qırmızı zanbaq” adlı romanları və bir çox ədəbi nümunələri qələmə almışdır. “Tais” romanı A.Fransın yaradıcılığının zirvəsi hesab olunur. 1925-ci ildə 350000-dən çox nüsxəsi nəşr olunan əsər demək olar ki, bütün dillərə tərcümə olunmuşdur. Tədqiqatın əsas məqsədi Avropanın bütün ölkələrində və Yaponiyada məşhurlaşan “Tais” romanının hermenevtik şərhini vermək, əsərin tarixin dərin qatlarına nüfuz edən Tais personajının mifik kodlarını müqayisəli təqdimat vasitəsilə aşkar etmək, Lotus/nilufər çiçəyinin simvolikasını estetik planda açaraq, gözəllik və əxlaq anlayışının qarşıdurmasını göstərmək, romanda dinin əsas motivlərindən biri olan ilahi sevgini səthi/profan yanaşma ilə rasional sferaya

necə yaxınlaşdırıldığını aşkarlamaq, son olaraq müəllifin hedonizm və Epikürün həzz qaynağını dünyəvi qata endirməsini və şübhəçilik mövqeyinin fəlsəfi aspektlərini izah etməkdir.

## Əsas hissə / *Main part*

### "Tais" romanının mövzusu və mədəni-tarixi konteksti

Anatol Fransın 1890-cı il tarixli "Tais" romanının yazılma prinsipi və ədəbi konstruksiyasını müəyyən süjet xəttində təsəvvür etmək üçün əsərin ümumi məzmunu ilə tanışlıq ilkin şərtlərdən biridir. Belə ki, roman keşiş mənəviyyatı ilə diqqət çəkən Pafnüsün Misirin Tabaid şəhərində düşüncəli bir şəkildə səyahət etməsi ilə başlayır. Mənəvi təlatümlərin ağuşunda ruhani həyatı seçən və "ədəbi həyat" şüarı ilə bir çox dini etiqadlara riayət edən Pafnüs, "ilahi eşq" ilə "dünyəvi eşq" paralelində seçim etməli olur. Yuxu motivlərinin təhtəlşüur kontekstinə işarə etdiyi hissələrdə əsərin eskort qadın qəhrəmanı Tais "dünyəvi eşq"i "ilahi eşq"in qismində göstərməklə təhkiyəçi yanıltma taktikasına müraciət edir. Romanın birinci hissəsini təşkil edən "Lotus" (nilufər) bölməsində Pafnüsün yuxularını şərh edən Palemon (kahin) və dini dünyagörüşünü sosial istiqamətdən dialoq vasitəsilə təqdim edən Timokles təsvir olunur. "Papirus" adlı ikinci hissədə Taisin hetera kimliyi estetik çirkinlik müstəvisində simvolik mahiyyətlə sintez edilir. Doryon, Nisyas, Zenatomis, Hermodor və Markusun xristian inancını analiz etdikləri və Eukritin tragik alleqoriyanın müşayiəti ilə reallaşan ölüm səhnəsi "Ziyafət" adlı üçüncü bölmədə hekayət edilir. Son olaraq "Süd toxumu" adlı bölmədə Tais personajının mistik ritualda etdiyi cismani təmizlik prosesi və Pafnüs-Tais personajları paralelində gözəlliyin cismani ölümü ilə çirkinliyin əbədi yaşarlığı səhnələşdirilir. Tais huma xəstəliyinə yoluxaraq tərki-dünya olur.

Tarixin antik dövrü ilə modern dünya parametrlərinin sintezinə söykənən süjet xəttində A.Frans "tarixi kostyum" texnikasına müraciət edir. Rus tədqiqatçı O.F.Şileviçin "Anatol Frans tərəfindən "Tais" fəlsəfi-alleqorik romanında "tarixi kostyum"un qəbul edilməsi" adlı məqaləsində də qeyd etdiyi kimi, "Kostyum hər hansı tarixi dövrə aid ola bilər. Belə ki,...yazıçı ona universallıq və ümumiləşdirmə verməyə çalışır" [19, s.147]. Tais personajının tarixi layını tədqiqatçı E.A.Aqapitova İ.A.Efremovun "Afinalı Tais" romanını tədqiq edərkən belə izah edir: "... "Afinalı Tais" romanı qədim tarixi mənbələrin məşhur mifoloji epizodları: Makedoniyalı İskəndərin hərbi səfərlərində iştirak edən məşhur Afinalı heteranın Fars krallığının paytaxtlarından biri olan – Persopolisi yandırması əsasında yazılıb" [17, s.104]. Bu hadisədə heteranın daşıdığı rol bir çox tarixi mənbə tərəfindən dezinformasiya olaraq qəbul edilsə də, tarixşünas S.A.Nefedovun "Dünyanın qədim tarixi" kitabında keçən "Şənliklərin birində Afinadakı gözəl hetera Tais İskəndəri bu sarayı, guya vaxtilə Fars kralı Kserks tərəfindən yandırılmış Afinanın qisasını almaq üçün yandırmağa təhrik etdi" fikri bu növ şübhələri aradan qaldırır [20, s.137]. Bu epizodik məqam rəssam C.Reynoldsun 1781-ci il tarixli "Məşəlli Afina Taisi" adlı tablosunda heteranın cinayətkar təşəbbüsü kimi öz əksini tapmışdır. Bu epizod tarix səhnəsində iki dini dünyagörüş mübarizəsi və əvəz edilməsi – antik dövrün bütpərəstlik inancı və Makedoniyalı İskəndərin təkidi ilə yayılan xristianlıq dinin qarşıdurmasını izah edir. A.Fransın "Tais" romanında da Makedoniyalı İskəndər Pafnüs adlı personajın timsalında təmsil olunur və Yunan mədəniyyətinin məhvi Pafnüsün Taisi mənəvi təmizliyə sövq etdiyi, lakin insani sevgi hisslərinin ləğvinə gətirən tarixi yandırılma səhnəsindəki bu dialoqla ifadə edilir: "Tais, toxunduğun hər şey odla məhv edilməlidir... Bu zaman Tais peyda oldu... O, Erosun heykəlini daşıyırdı... Ata, bunu da oda atmalıyıq?... Bu uşaq sevginin özüdür... Eşq bir fəzilətdir... Onu görənlər qəlblərini Allaha çevirərlər. Çünki məhəbbət öz təbiətinə görə daha yüksək ideyalar səviyyəsinə yüksəlməyi bilir... Erosun xilas olduğunu düşünüb uşağa gülümsəmiş kimi gülümsəyərkən, Pafnüs abidəni qollarından çıxarıb alova atdı" [8, s.110-111]. Türk tədqiqatçı Şefik Canın "Klassik Yunan mifologiyası" adlı kitabında dediyi kimi "sevginin tə-

məli, varlıqları və hər şeyi bir-birinə çəkən, onları birləşdirən, həyatı quran və çoxaltmaq funksiyasına malik olan...” Eros heykəli bu məqamda sevgi sahəsində daşıdığı funksiyaları itirir [3, s.22].

Makedoniyalı İskəndərin Persopolisə qarşı təcavüzkar hücumu ilə bağlı S.Ö.Kılıç “Qərbi Anadolu Fars hakimiyyəti altında” adlı doktorluq dissertasiyasında “Sardisdəki məbəd Fars ordusu tərəfindən yandırıldı, buna cavab olaraq həyata keçirilən nəzarətsiz bir hərəkət kimi, qəbul edilməlidir” deyir [11, s.61]. Beləliklə, Şərq-Qərb müharibələrinin birinci qismində Fars kralı Daranın hakimiyyəti dövründə vüsət alan Troya müharibələri, ikinci mərhələdə Fars-Yunan müharibələrinə keçid edir. Üçüncü mərhələdə Makedoniyalı İskəndərin Asiya ölkəsinə səfəri ərəfəsində qisasın siyasi arenasında Afinadakı məbədin yandırılması, Persopolisin məhv edilməsi ilə nəticələnir, bu da bir çox ədəbi mətnlərə sirayət edən tarixi məqam olur.

**Tais personajının mifdən ədəbiyyata keçidi: gözəllik-əxlaq antitezası və mətnin simvolik mahiyyəti**

Tais personajının Fransız ədəbiyyatına gəliş prosesi mif-tarix müstəvilərindən qaynaqlanır. “Tais” romanının mifoloji qatını təşkil edən Tais hekayəsini “Tais”dən öncə Tais, A.Fransın yaradıcılığında Tais və A.Fransın qələmindən sonra Tais olaraq üç mərhələdə göstərmək olar. Belə ki, Sidney Duqlas Enqle “Anatol Fransın romanına əsasən Tais əfsanəsinin tədqiqi” adlı dissertasiyasında e.ə. IV əsrdə yaşamış və hetera kimi tanınmış Tais obrazını araşdırarkən “... dörd mənzum variantı və Hrotsvit versiyası olan bir pyes varki, bir neçə cəhətdən unikaldır və çox güman ki, Anatol Fransın romanına öz töhfəsini vermişdir” deyir və bununla da, Hrotsvitanın 935-1002-ci illərdə latın dilində yazdığı təxmin edilən “Pafnüs və ya Taisin çevrilişi” adlı tamaşasını nəzərdə tutur [23, s.15]. Başqa bir nümunə isə Paul Meyer tərəfindən aşkar edilən Marbodun XII əsrdə latın dilində yazdığı şeirdir. XIII əsrdə “Ataların həyatı” adlı tamaşada üzə çıxır və XV əsrdə isə Alman Konrad Seltes tərəfindən bu mif yenidən aktual mövzuya çevrilir. Qeyd edilən mətnlər arasındakı ilk oxşar cəhət Sitka Sandronun “Hrotsvitanın Pafnüsündə qurtuluş kimi sürgünün seçilməsi” məqaləsində qeyd etdiyi “...keşiş, o qədər yaxşıdır ki, ehtiyac duyduğu istənilən cismani çağırışlara müqavimət göstərə bilmək arzusu ilə təmin edilib” məqamıdır, bütün müəlliflərin ortaq ilahi maneradan istifadə etmələridir [25, s.37]. Digər bir eynilik “Tais tövbə etməkdən imtina edir, lakin Pafnüsün səyləri onu əmin edir və tövbəyə hazırlaşır” cümləsinin hərəki tərəfindədir [23, s.18]. Mətnləri bir-birindən ayıran ünsür heteranın kəfarət müddətinin 3 və ya 5 il olması ilə bağlı yaranan tərəddüddür. Belə ki, XIII əsrdə “Ataların həyatı” adlı mətnlə başlayan 5 illik müddət 500 il sonra Sitka Sandora yaradıcılığında da öz əksini tapır.

Taisin tövbəsinin səbəbi yaşadığı mühitdə qazandığı sosial statusu ilə bağlı idi. Sosial münasibətlər üzrə araşdırma aparan Pınar Balcı “Evli fərdlərin sevgiyə münasibətləri ilə evlilik uyğunluqları arasındakı münasibətlərin incələnməsi” adlı dissertasiya işində kəskin bir şəkildə *“Yetkin kişilər öz həyat yoldaşları ilə deyil, “hetera” adlandırdıqları yüksək maaşlı fahişələrlə maraqlanırlar”* deyə yazır [12, s.20]. Bu fikir öz təsdiqini romanda tapır, belə ki, Tais öz monoloqunda *“Təbiətim kimi, sosial statusumu təyin edən mən deyiləm. Mən etdiklərimi etmək üçün yaradılmışam. Mən kişiləri mənə aşiq etmək üçün doğulmuşam...”* deyərək, günahsızlığını müdafiə edir [8, s.74]. Cəmiyyətdə monoqamiya əsasında qurulan münasibətlər əxlaq prizmasından keçərli göründüyü halda, romanın süjet xəttinin müxtəlif epizodlarında Taisin qubernatorun oğlu Lolyus, Pafnüsün dostu Nisyas, Pafnüs və bir çox əks cinslərlə münasibətini görürük. Bilirik ki, *“Qadının bir və ya bir neçə kişi ilə əlaqədə olma forması- poliandriya”*dır və əxlaq normalarına uyğun deyil [16, s.221]. Yunan mədəniyyətində “hetera” olaraq bilinən bu qadınları Yaponiyada geyşa adı ilə təmsil olunan kateqoriya ilə müqayisə etmək olar. Heteralat geyşalığın fərqli bir qolu olan “yuce”lərə bənzəyir. Onlar intellektual səviyyələrinə görə, “incəsənət adamı” kimi tanınır. Belə ki, geyşa və yucelər tarix boyu fərqli mövqe tutsalar, cəmiyyətin onlara dair görüş və baxışları məlum idi [1].

Maraqlıdır ki, A.Fransun “Tais” romanın yaranma ərəfəsində Tais və Pafnüs personajları ilə bağlı yazılan mətnlərdən birində Kuehne XIX əsrdə Tais əfsanəsinin “unudulmaq təhlükəsi ilə üzləşdiyini” qeyd edərək, 1893-cü ildə Maqninin Pafnüs ilə bağlı tərcümələrini hazırlayır [24, s.90]. Bu tarixdən təqribən 500 il öncə Dante Aliqyeri 1308-1321-ci illər ərəfəsində tamamladığı “İlahi komediya” adlı əsərində Tais obrazını cəhənnəmin 8-ci qatına ataraq ondan vulqar sözlərin müşayiəti ilə bəhs edir:

“Fahişə olan Tais, cavab verdi
O sevimli rəfiqəsinə, dedi: *Məndə var*
*Səndən böyük təşəkkür? - Xeyr, ecazkar.*
*Bununla da gözümüz doysun”.* [22, s.130]

İ.Efremovun 1972-ci il tarixli “Afinalı Tais” adlı romanında isə Tais heterası əsas personaj olaraq əsərin birbaşa adına daxil edilir. Əsərdə Pafnüs Makedoniyalı İskəndər, Nisyas isə Ptolomeyin timsalında tarixi adları ilə adlandırılır. Digər mətnlərdən əsas fərqi M.V.Borisoviç “İ.Efremovun romanında Afinanın Taisi: ibtidai sinifdə paralaks baxışı” adlı məqaləsində izah edir. O romanda intellektual qadın qismində təqdim edilən Tais haqqında *“İvan Efremovun romanının əsas personajı olan Afina Taisinin obrazı ikilidir. P.Sorokin onun haqqında danışdığı çox mifogen ideya mədəniyyəti var. Üçvalentli cismaniliyə əlavə olaraq (maddi, xəyali və əqli olanın birliyi), Tais obrazında müəyyən antinomiyaları təmsil edir”* deyir. Bu əsərdə Tais Ptolomey ilə evlənir [18, s.107]. Olqa Erlerin 2009-cu il tarixli “Makedoniyalı İskəndər və Tais. Möhtəşəm heteranın sədaqəti” adlı əsərində də Taisin Ptolomeyə qarşı olan dünyəvi sevgisinə aşağıda verilən misralar vasitəsilə şahid oluruq:

*“Parlaq şərqi xatırlayıram*
*Yaşıl yarpağı xatırlayıram*
*Qarğıdalı sünbülləri olan tarla*
*İtirilmiş yol...*
*Və onun bağına yaxın məsafədə...*
*Ürəyim çırpınır”.* [21, s.17]

Bundan başqa, Kristofer Marlo “Doktor Faust”, Meri Reno “Atəş və səma”, “Fars oğlan”, “İskəndərin təbiəti”, Co Qrex “Odun oğurlanması” əsərlərində Tais haqqında bəhs etmişlər. Bu əsərlərin hər birində Tais obrazına müxtəlif cür yanaşma var.

Xatırladaq ki, romanda Taisin günahkar qadın təsviri qurbanlarına *“Bəs sən qadının qucağında ruhunu çirkləndirməkdən qorxmursan?”*sualını verir [8, s.102]. S.D.A.Enqle bu sualın sahibinin durumunu günaha sövq edən *“... vəhşi ilanın vəsvəsələri”* ilə eyniləşdirir [25, s.13]. İlk insanlar olan Adəm-Həvva qütbündə baş verən günaha sövq etmək hadisəsi məhz Həvva-Tais (qadın) və Adəm-Pafnüs (kişi) paralelində özünü göstərir.

Gözəllik-əxlaq antitezasında müəllif Lotus çiçəyinin yaradılış sxemlərini Taisin fiziki portreti üzərinə köçürür. Belə köçürmələri *“Tais...sümbül yatağında uzanmış... sinəsi çiçək açmışdı, qolları iki çay kimi təravətli idi”* və *“Hər dəfə çiçək açan ağac və ya parlaq quş görəndə Tais yada düşürdü*” cümlələrində müşahidə edirik [8, s.11, 25]. Buddizm və Çin mənbələrində müqəddəs bitki sayılan Lotus çiçəyi türk tədqiqatçı Burcu Günayın “Bitki aləmində simvol kimi lotus və onun bədii təmsilləri” adlı doktorluq dissertasiyasında *“Təbii gözəlliklə əhatə olunmuş sonsuz tənhalıq”* adlandırılır [10, s. 54]. C.Qoddinin “Bitkilərin mədəniyyəti” adlı kitabında *“Ölünün bir lotusdan yenidən doğulduğu rəvayət edilir; Bir tərəfdən günəş kultları ilə, digər tərəfdən insanın çıxdığı ana bətni lotus ilə eyniləşdirilir”* [9, s.75]. Nusret Gedikin “Klassik türk şeirinde nilufer” adlı məqaləsində isə oxuyuruq: *“Lotus palçıqlı, bulanıq sulardan çıxsa da, çiçəkləri və yarpaqları təmiz və parlaqdır. İçi boş, xaricdən isə dikdir; budaqları yoxdur, lakin şirin qoxusu var; Saflığın*

*simvoludur. Buddizmdə lotusun meyvəsi, çiçəyi və gövdəsi keçmiş, indi və gələcəyi simvollaşdırır*" [9, s.74]. Gözəllik ilə günahın kontrastı Lotusun parlaq ləçəklərinin bataqlıqda bitməsi və Taisin gözəl fiziki quruluşunun sosial mühitin çirkabına batması ilə vəhdət təşkil edir.

Romanın sonuna doğru günahlarından xilas olmaq üçün tövbə edən Tais "Son altı gündür, ondan kənarlaşmayan humma xəstəliyi..."nə yoluxur [8, s.166]. Tədqiqatçı Məryəm Doygun "İsmayıl Cürcaninin Zahir-e Xarəzmşah adlı əsərində Hummayi-Yevmi" adlı məqaləsində humma xəstəliyinin simptomlarından bəhs edir: "humma qəribə qızdırma növüdür; qəlbdə alov yaradır... arteriyal damarlarda olan ruhla bütün bədənə yayılır və onu qızdıraraq...bədənini məhv edir...bunlar təsadüfi hummalardır ...bədəndə pozğun və pis şeylərdən əmələ gəlmişdir" [5, s.217-218]. Osman Özerin "Huma/Homa/Homma adı üzərinə bir incələmə" adlı məqaləsi isə bizə "Tais" romanın "Süd toxumu" bölməsi ilə humma xəstəliyi arasındakı paraleli görməyə şərait yaradır: "Qədim İranda müqəddəs içki "Haoma" kahinlər tərəfindən "Haoma" bitkisinin məhlulda döyülərək süd və su ilə qarışığından hazırlanırdı. Onun içki içənlərə şəfa, güc, vəcd kimi xüsusiyyətlər verdiyinə, ölümün qarşısını aldığına inanılırdı" [14, s.43]. Büşra Baysalın "Humay quşunun müqayisəli xalq mifologiyasında dəyərləndirilməsi" adlı məqaləsində isə Yunan mifologiyasında "davamlı təzələnmə, yenilənmə"ni təmsil edən Feniks (türk inanclarında humay) quşu ilə ölümü gətirən Humma xəstəliyi arasındakı olum-ölüm tənasübünü aşkar edirik [2, s.12].

**A.Fransın "Tais" romanında şübhəçilik, nisbi həqiqət, hedonizm nəzəriyyəsi və dini fanatizmin tənqidi**

A.Fransın "Tais" romanın şübhəçilik rakursunu nəzərdən keçirərkən Adnan Esenyelin "Dekart və Yumda "şübhəli bilik" ideyası" adlı məqaləsində qeyd etdiyi kimi, "...bəlkə də şübhə fəlsəfədən və qnoseologiyadan xaric edilən "düşmən" olmaq əvəzinə, əksinə, sirr və gözə dəymədən ört-basdır edilən "yoldaş"a çevrilə bilər" fikri üzərində dayanırıq [7, s.245]. Pafnüsün həmsöhbəti olan Timokles: "Menfistdəki piramidalar (Aşağı Misirin paytaxtı) sübh çağı çəhrayı işıq ləkələri kimi görünür və gün batımında odlu üfüqdə qara bəla kimi görünürlər... Görünüşü inkar etməkdə məni qınayırsınız, amma bildiyim yeganə həqiqət fikirlərdir. Günəş mənə işıq alovu kimi görünür, amma onun mahiyyəti mənə məlum deyil" deyərək, şübhəçilik fəlsəfəsinin sadə təqdimatını nitqi ilə səsləndirir [8, s.20-21]. Həqiqətlər üzərində müzakirələr aparan Pafnüs-Timokles dialoqu, anlayışların yenidən şərh edilməsi çərçivəsində Mark Tvenin "İnsan nədir?" əsərindəki Gənc və Yaşlı adamın səbəb-nəticə əlaqəli sillogizmlərini xatırladır.

Şübhəçilik fəlsəfəsinin başqa bir qolunu təşkil edən "nisbi həqiqət" anlayışı Hüseyin Subhi Erdemin "Nitsşe fəlsəfəsində həqiqətin buxarlaşması" məqaləsində "həqiqət, yaxud apriori reallıq və ya məntiqi müddəaların həqiqəti linqvistik vəziyyətdir. Ona görə də həqiqət mütləq xarakter daşımır" kimi izah olunur. A.Fransın "Tais" romanında isə bu durum

"Pafnüs:

- Yəni sizin üçün həqiqət yoxdur? Palçıqda yatan it kimi cəhalətdə yatırsınız.

Timokles:

- Bəli...İtlərin nə olduğunu bilmirik, özümüzün kim olduğumuzu bilmirik, biz heç nə bilmirik" deyə etiraz edən Pafnüs-Timokles dialoqunda öz əksini tapır [8, s.20].

Romanın "Ziyafət" bölməsində "həzz qorxunc bir şeydir...sevgi bir növ qaraciyər xəstəliyidir və heç kəs bu xəstəliyə yoluxmayacağından əmin ola bilməz" düşüncələri [8, s.40] sanki Epikürün "Yaşadığınız həzzdən sonra ağrı hiss edəcəksiniz. O sizə əsl xoşbəxtliyi verə bilməz... Ağrıdan, kədərdən və narahatçılıqdan qaçan, lakin həzz almağı məsləhət görən doktrina"sı [6] əsasında formalaşır. Amerikalı tədqiqatçı Ross "yaxşı olmaq ilə həzz verici olmağın eyni məna daşımadığını" bildirir və bu fikri tənqid edir [4, s.4].

"Tais" romanını dini fanatizm istiqamətində araşdırarkən müəllif qələminin kəskin üslubu ilə qarşılaşmaq qaçılmazdır. Alberto Toskano "Fanatizm" kitabında *"Fanatizm, eyni zamanda çoxşaxəli və birmənalı, döyüşkən məzhəblər yaradır və mahiyyətcə homojen bir məntiqlə motivasiya*

*olunur. Onun mənşəyini maarifçiliyin digər düşməni olan xurafatda tapmaq olar. Fanatizm hərəkətdə olan xurafatdır"* cümlələri ilə dini fanatizmin inanclar dünyasındakı saxta mövqeyini elan edir [15, s.131]. Anatol Fransın subliminal mesajı Pafnüsün keşiş qütbünün mənəvi çöküşünü təmsil edən *"Tanrıyı razı salmaq və əbədi xoşbəxtliyə layiq olmaq üçün... ...heç bir qarşılıq gözləmədən lazımsız yorğunluğa, lazımsız ağrıya dözmək axmaqlıqdır*" fikri ilə aktivləşir [1, s.21]. Taisin fiziki ölümünün reallaşdığı son səhnədə *"Ölmə, səni sevirəm, ölmə! Mənə qulaq as, Taisim. Allah, cənnət, hamısı boş şeylərdir. Həqiqi olan, yalnızca dünya üzərindəki həyat və insani sevgidir"* çıxışları ilə kulminasiya nöqtəsinə qalxır [1, s.167]. Əsərin bəlkə də oxucu tərəfindən ən faciəli, ən acınacaqlı sonluğu Taisin ölümü ilə bağlıdır. Baxmayaraq ki, ölüm anında mələklərin onu qanadlarına qaldırdığını *"...Göy üzü açılır. Mələkləri, peyğəmbərləri, müqəddəsləri görürəm...İki mələk mənə doğru gəlir, gülümsəyərək məni çağırırlar. Yaxınlaşırlar. Nə gözəldirlər. Allahı görürəm"* deyərək dilə gətirir [8, s.167]. Burada müəllif monastr illüziyalarının yerlə yeksan olduğunu göstərir. Təhkiyə Pafnüsü kəskin etirazlarının mükafatı olaraq ruhi sarsıntılar ilə müşayiət olunan əbədi yaşarlıq və cismani çirkinliklə təltif etdiyi halda, Taisin yaşlanmaq qorxusu ilə yüklənmiş gözəl cildini tərki-dünya edir. Beləliklə, müəllif qələmi öz ədalət anlayışını mənəvi inkvizisiya vasitəsilə həyata keçirir.

## Nəticə / *Conclusion*

Məqalə əsasında gəldiyimiz nəticə belədir ki, A.Fransın "Tais" romanını ədəbi kodlarla sistemləşdirilmişdir. Roman başlanğıc nöqtəsindən etibarən oxucu mütaliəsində dəf etməli olduğu əngəllər toplusuna çevrilir. Mətn tarixi, ədəbi, mifoloji, psixoloji və fəlsəfi istiqamətlərdən araşdırılma tələb edir. Əsərin tarixi qatında Taisin partnyoru Makedoniyalı İskəndər olaraq qəbul edilsə də, bəzi mətnlərdə bu şəxsin Ptolomey olması ilə bağlı qeydlər var. Əsərdə Lotus çiçəyinin bioloji xüsusiyyətləri Tais personajının üzərinə köçürülür, başqa bir paradoksda ölümcül humma xəstəliyi, ölümsüz huma quşu ilə müqayisə edilir. Əsərin fəlsəfi qatında şübhəçilik nəzəriyyəsi "həqiqət" anlayışına "nisbi-həqiqət" prizmasından baxılmasını tələb edir. Əsərin dini antitezis əsasında qurulan bünövrəsi dini fanatizm anlayışının izahı vasitəsilə açılır. Əsərin əsas məğzi mənəvi ölüm ilə fiziki ölüm arasındakı fəlsəfi məsafədə özünü açır.

## Ədəbiyyat / *References*


***Azərbaycan dilində***

1. Geyşa-o, fahişə deyil. Elektron resurs: (https://kulis.az/xeber/senet/-613).

***Türk dilində***

2. Baysal, B. Hüma kuşu'nun uygulamali halk mitolojisi bağlamında değerlendirilmesi // B.Baysal. AHBVÜ Edebiyat Fakültesi Dergisi, 2021, cilt 2, (5).
3. Can, Ş. Klasik Yunan mitolojisi/ Ş. Can. – İstanbul: Ötüken yayınları, 2020. – 93 s. ISBN:978-975-437-858-0
4. Dalga, A. Etik teorilerin bir örneği olarak hedonizm (zevkperizm) // A.Dalga. *Strateji Düşünce ve Analiz Merkezi. – İstanbul, 2022. – 8 s.*
5. Doygun, M. İsmâil Cürcânî'nin Ẕaḫîre-i Ḫârezmşâhî ( ذخيرهٔ خوارزمشاهى (Adlı Eserinde Humma-yi Yevmî (حمى ى ومى)// M. Doygun. Ortaçağ araştırmaları dergisi, 2023, № 6/1.
6. Epikuros ile hayattan hazz almanın sırrı. (http://felsefe-alemi.blogspot.com/2015/04/epikuros-epicurus.html).
7. Esenyel, A. Descartes ve Hume'da "şüpheli bilgi" fikri// A. Esenyel. Felsefe ve Sosyal Bilimler Dergisi, 2017, sayı: 24.
8. France, A. Tais/ A. France. – İstanbul: Dorlion yayınları, 2023. – 168 s.

9. Gedik, N. Klassik türk şiirinde nilufer // N.Gedik. Akademik dil ve edebiyyat dergisi. 2022, №3, cilt 6.
10. Goddy, J. Bitkilerin kültürü/ J. Goddy. – İstanbul: Ayrıntı yayınları, 2010. – 641 s.
11. Günay, B. Bitki evreninden bir gösterge olarak lotus ve sanatsal temsilleri/ B.Günay. Sanatta yeterlilik tezi. – İstanbul, 2019. – 127 s.
12. Kılıç, Ö.S. Pers hakimiyeti altında Batı Anadolu / Ö.S.Kılıç. Doktora tezi, 2011. – 239 s.
13. Lafcı, P. Evli bireylerin aşka ilişkin tutumları ile evlilik uyumları arasındaki ilişkinin incelenmesi/ P. Lafcı. Yüksek lisans tezi. – İzmir, 2014. – 169 s.
14. Özer, O. Huma/Homa/Homma adı üzerine bir inceleme // O.Özer. Uluslararası filoloji bengü, 2002, № 1, cilt 2.
15. Toscano, A. Fanatizm (bir fikrin kullanımları üzerine) / A.Toscano. – İstanbul: Metis yayınları, 2013. – 314 s.
16. Yılmaz, E., Tamam, L., Bal U.Poligami ve ruh sağlığına etkileri // E.Yılmaz, L.Tamam, U.Bal. Psikiyatride Güncel Yaklaşımlar, 2015, s.221-228. eISSN:1309-0674 pISSN:1309-065

***Rus dilində***

17. Агапитова, К.Е. Исторические источники в романе И.А.Ефремова «Таис Афинская»/ К.Е.Агапитова / Филологические науки: Ученые записки Петрозаводского Государственного Университета. 2015, ноябрь, № 7.
18. Борисович, М.В. Таис Афинская в романе И.Ефремова: параллаксный взгляд на первозданную телесность / М.В.Борисович. – Тамбов: Грамота, 2011. № 3 (9). ISBN:1997-292X.
19. Жилевич, О.Ф. Прием «исторического костюма» в философско-аллегорическом романе Таис» Анатоля Франса / О.Ф.Жилевич // Дискуссионные вопросы романистики: материалы международной научно-практической конференции. – Минск, 10 октября 2018 г. / Белорусский государственный университет; редкол.: О.В.Лапунова (отв. ред.) [и др.]. – Минск: БГУ, 2018.
20. Нефёдов, С.А. История древнего мира / С.А.Нефёдов. – Владос: 1996. ISBN:5-691-00017-9
21. Эрлер, О. Искандер Македонский и Таисийский. Верность великолепной гетеры / О.Эрлер. – Москва, 2009. – 638 с.

***İngilis dilində***

22. Alighieri, D. Divine Comedy – Inferno / D.Alighieri. Josef Nygrin, 2008. – 262 p.
23. Engle S.D. A Study of the Thais Legend with Focus on the Novel by Anatole France. Master's Thesis, University of Tennessee, 2006. – 83 pp. URL: (https://trace.tennessee.edu/utk_gradthes/1547).
24. Kuehne, Oswald Robert. A Study of the Thaïs Legend. – Philadelphia: University of Pennsylvania, 1922. – 276 p.
25. Sticca, Sandro. “Exile as Salvation in Hrotswitha’s Paphnutius.” Exile in Literature. Ed. María-Ines Lagos-Pope. – Lewisburg: PA Bucknell UP, 1988.

# Роман Анатоля Франса «Таис»: код, контекст и функция

**Шабнам Аббасова**
Бакинский Евразийский Университет, Магистр
E-mail: ab.shebnem@gmail.com

**Резюме.** Роман «Таис», являющийся темой исследования статьи, исследовался с историко-литературного, литературно-критического, философского и психологического направлений. Сначала был дан краткий анализ по содержанию работы. События в произведении происходят во временных промежутках между античностью и современным миром. В то время как российские исследователи О.Ф.Шилевич и Е.А.Агапитова в своих исследованиях анализируют художественный слой персонажа, С.А.Нефедов на основе научных фактов представляет в своем труде «Древняя история Мир». Турецкий исследователь Шефик Джан в своей книге «Классическая греческая мифология» упоминает любовные истории, созданные стрелой Эроса.
Литературный экскурс Таиса рассматривается в 3 этапа: Таис до Таиса, Таис в изложении Анатоля Франса и Таис после Анатоля Франса. Легенда о персонаже «Таис», которую изучали исследователи Сидней Дуглас Энгл, Ситка Сандро и немец Конрад Сеттлс, впервые была написана на латыни. Социальный статус, который они несли в обществе, суммировали имена гетера и гейша. В конфликте между красотой и нравственностью все характеристики цветка лотоса были проанализированы в единстве с физической структурой Тайсина, а смертельная болезнь хума была основана на растении хума и птице, известной в турецкой мифологии как Хумай. Сюжетная линия романа А.Франса «Таис» основана на поэме «Божественная комедия», написанной итальянским писателем Данте Алигьери в 1308-1321 годах, романе И. Ефремова «Таис Афинская» 1972 года и повести «Александр Македонский» Ольги Эрлер 2009 года и Таис. Произведение «Верность великолепной Гетеры» мы изучали на уровне сравнительного литературоведения.
В последнем подзаголовке произведения изучаются философская мысль Декарта, основанная на «сомнительном знании», концепция «относительной истины», теория удовольствия, созданная мировоззрением Эпикура, и религиозный фанатизм.
**Ключевые слова:** Анатоль Франц, Таис, Александр Македонский, исторический роман, гетера, гейша, символика, священник, религиозный фанатизм, философский контекст